*UOT 372.3/.4*

***Röyya Həmid qızı İsmayılova***
*Sumqayıt Dövlət Universitetinin*
*Pedaqogika və psixologiya kafedrasının müəllimi*
*https://orcid.org/0000-0001-6090-1124*
*E-mail: cafarli84@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).135-138*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ MƏSULİYYƏT HİSSİNİN FORMALAŞMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

***Royya Hamıd Ismayılova***
*lecturer of the department of Pedagogy and psychology of*
*Sumgait State University*

# PEDAGOGICAL CONDITIONS FOR THE FORMATION OF A SENSE OF RESPONSIBILITY IN PRIMARY SCHOOL STUDENTS

***Ройя Гамид гызы Исмаилова***
*преподаватель кафедры Педагогики*
*и психологии Сумгаитского Государственного Университета*

# ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ ФОРМИРОВАНИЯ ЧУВСТВА ОТВЕТСТВЕННОСТИ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

**Xülasə.** Elmi məqalədə kiçik yaşlı məktəblilərdə məsuliyyət hissinin pedaqoji şərtləri və formalaşmasının metodları nəzərdən keçirilir. Kiçik məktəb yaşı dövründə uşaqların mənəvi inkişafının təşəkkülü məsələləri, təlim prosesində məsuliyyət hissinin formalaşması yolları araşdırılır. Müəllim qeyd edir ki, məsuliyyət hissi həyatda uğur qazanmağa və sinifdə nüfuza nail olmağa çalışan hər bir şagird üçün zəruri olan keyfiyyətdir.
***Açar sözlər:*** *kiçik yaşlı məktəbli, məsuliyyət hissi, pedaqoji şərtlər, formalaşma metodları, mənəvi inkişaf*

**Abstract.** The scientific article examines the pedagogical conditions and methods of developing a sense of responsibility in primary school students. The issues of developing moral development in children of primary school age, and ways of developing a sense of responsibility in the learning process are examined. The teacher notes that a sense of responsibility is a necessary quality for every student striving for success in life and achieving authority in the classroom.
***Key words:*** *primary school student, sense of responsibility, pedagogical conditions, methods of formation, moral development*

**Аннотация.** В научной статье рассматриваются педагогические условия и методы формирования чувства ответственности у младших школьников. Исследованы вопросы формирования нравственного развития детей в младшем школьном возрасте, пути формирования чувства ответственности в процессе обучения. Учитель отмечает, что чувство ответственности – необходимое качество для каждого ученика, стремящегося к успеху в жизни и достижению авторитета в классе.
***Ключевые слова:*** *школьник младшего возраста, чувство ответственности, педагогические условия, методы формирования, нравственное развитие*

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin inkişafı müəllimlərin işində xüsusi yer tutur. Lakin hazırda ibtidai sinif şagirdlərində məsuliyyət hissinin səmərəli inkişafı üçün xüsusi pedaqoji şəraitin yaradılması ilə bağlı məsələlər kifayət qədər işlənib hazırlanmamışdır. Məsuliyyəti inkişaf etdirmək vəzifəsi müəllimlərin cəmiyyətin sosial zəruri tələblərini: hər bir uşağın şəxsiyyəti üçün vəzifə, şərəf, vicdan, ləyaqət və məsuliyyət kimi daxili stimullara çevirməsini təmin etməkdir. İbtidai məktəbin sonunda şagirdlərin davranışlarına, təhsil fəaliyyətlərinə

münasibətinə, müxtəlif tədris tapşırıqlarının yerinə yetirilməsinə daha çox diqqət yetirilir.

Məsuliyyət insanın əxlaqi keyfiyyətlərindən biridir. Geniş mənada görülən işlərə görə cavabdeh olmaq, əldən verilmiş işin əvəzini ödəmək və səhv yerinə yetirilən işlərə görə cəzalanmaqdır (1).

Məsuliyyət insanın əsas və ən mürəkkəb keyfiyyətlərindən biridir. Alimlər insanın emosional, əxlaqi və ideoloji cəhətləri ilə sıx əlaqədə olduğuna görə onu ən yüksək səviyyəli keyfiyyət adlandırırlar. Məsuliyyət yalnız xarakterdə deyil, həm də hisslərdə, qavrayışda, şüurda, yəni fərdi davranışın müxtəlif formalarında təzahür edir.

Məsuliyyətin formalaşması hazırda bir neçə səbəbə görə aktualdır. Onlardan biri bu məsələnin həlli üçün optimal dövrlə bağlıdır: məhz ibtidai məktəb yaşında uşağın psixikası öyrənməyə və ya təhsilə çox həssasdır. Bu, bioloji yetkinlik, yəni beynin funksional yetkinləşməsi ilə bağlıdır. Bu fenomen müvəqqətidir. Hər hansı bir funksiya yetkinliyə çatan kimi sosial təsirə qarşı həssas olur, yəni inkişafın optimal dövrünə gecikmiş öyrənmə və ya təhsil səmərəsiz olur.

Həyat təcrübəmizdən bilirik ki, böyüyən uşağı yenidən tərbiyə etmək ona erkən uşaqlıqdan düzgün tərbiyə verməkdən qat-qat çətindir. Yeniyetmələr öz çatışmazlıqlarını dərk etsələr belə onları arasan qaldırmaqda çətinlik çəkirlər. İkinci səbəb məsuliyyət hissi ilə şagirdin akademik göstəriciləri arasında sıx əlaqənin olmasıdır. Dərslərinə məsuliyyətlə yanaşan uşaqlar daha böyük nəticələr əldə edirlər. Alimlərin araşdırmaları göstərmişdir ki, məsuliyyətli şagirdlərin fəaliyyətində uğura can atmaq motivi, təhsilində müəyyən nəticələr əldə etmək istəyi üstünlük təşkil edir.

S.Y. Layzanenin apardığı tədqiqatlar göstərdi ki, iradi keyfiyyətlər, o cümlədən məsuliyyət hissi ibtidai məktəb yaş dövründə, ilk növbədə, oyun fəaliyyətində, əmək fəaliyyətində, daha sonra şagirdin təhsil və digər fəaliyyətlərində onun mövqeyi formalaşır (2, s.64).

Emosiyalar məsuliyyətin formalaşmasında mühüm rol oynayır. Sinifdənkənar fəaliyyətlərdə şagirdlərlə "Ailə", "Peşələr" mövzusunda söhbətlər təşkil edilə bilər. Şagirdlər ailə üzvlərinin bir-birlərinə münasibətini, həmçinin müxtəlif peşə nümayəndələrinin gördükləri işə münasibətini təhlil edərək vəzifə, borc, məsuliyyət anlayışlarının xüsusiyyətlərini dərk etmiş, məsuliyyətli və məsuliyyətsiz davranış nümunələri göstərmişlər. Bu mövzuda söhbətlərin təşkili bizə onlardan belə bir keyfiyyəti məsuliyyət kimi dəyərləndirməyin nə üçün zəruri olduğu barədə cavablar almağa kömək etdi.

Bütün valideynlər övladlarına sözləri və hərəkətləri üçün məsuliyyət daşımağı öyrətmək arzusundadırlar. Bir çox ailələr hesab edir ki, problemin həlli uşaqlar üçün daimi vəzifələrin qurulmasıdır. Hesab olunur ki, zibilləri daşımaq oğlanlara, qabları yumaq, otaqları təmizləmək qızlara tapşırılmalıdır. Lakin bu cür vəzifələr ibtidai sinif şagirdlərində məsuliyyət hissinin inkişafına təsir göstərə bilməz. Əksinə, bəzi ailələrdə uşaqları bu vəzifələri yerinə yetirməyə məcbur etmək daimi mübahisələrə gətirib çıxarır ki, bu da onlara mənfi təsir göstərir.

Həqiqət isə çox sadədir: məsuliyyət hissi məcburən uşağa aşılanmamalıdır, o, evdə, eləcə də ailədən kənarda alınan dəyər oriyentasiyasına əsaslanaraq daxildən özünü göstərməlidir. Uşaqlarda məsuliyyətin inkişafı üçün ən vacib olan ibtidai məktəb yaşıdır, çünki bu dövrdə cəmiyyətin gələcək üzvləri kimi uşaqların şəxsiyyətinin ən mühüm keyfiyyətləri formalaşır. Kiçik məktəb yaşı dövründə ibtidai sinif şagirdlərində məsuliyyətin məqsədyönlü inkişafı özünü təzahür etdirir. Belə ki, şagirdlər onlara tapşırılan tapşırığın yerinə yetirilməsinin vacibliyini dərk etməyə, həmin tapşırığın başqaları üçün də əhəmiyyətini başa düşməyə, həmçinin tapşırığı yerinə yetirərkən öz hərəkətlərini, davranışlarını təşkil etməyə (vaxtında başlayır, çətinlikləri aradan qaldırmağa çalışır, tapşırığı sona çatdırır və s.), tapşırığa, onun icra keyfiyyətinə emosional münasibət nümayiş etdirməyə, verilmiş tapşırığın icrasına cavabdeh olmaq zərurətini dərk etməyə qadirdirlər.

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi məsələsində əsas məqam böyüklərin özlərinə qarşı tələbkarlığıdır. Məsuliyyət hissi anadangəlmə keyfiyyət deyil, o, həyat tərzi, böyüklərin örnəkləri ilə tərbiyə edilir. Böyüklərin hərəkətləri uşaqlara gözəl sözlərdən daha çox təsir edir. Ona görə də, valideyn və müəllimlərin nüfuzu onlarda məsuliyyət hissinin formalaşmasında ən mühüm şərtlərdəndir. Təhsil prosesinin humanist istiqaməti azad şəxsiyyətin tərbiyəsinə əsaslanır. Bu hiss insana ətrafdakı reallığın şərtlərinə uyğunlaşmağa kömək

edir. Məsuliyyət insanın üzərinə götürdüyü öhdəliklərə görə cavab vermək qabiliyyəti kimi başa düşülür. Praktik situasiyalarda söhbət vəziyyətdən asılı olmayaraq bir insanın problemi həll etmək üçün hər şeyi etməyə çalışmasından, hər bir hərəkətinə tam cavabdeh olmasından və başladığı bir işi sona çatdırmaq istəyindən gedir.

Tərbiyə prosesinin humanistləşdirilməsi fəal həyat mövqeyinə malik insan yetişdirmək məqsədi daşıyır, bu baxımdan məsuliyyət hissi fərdin aktiv həyat mövqeyinə malik olmasını göstərən şəxsi keyfiyyətlərdən biridir. Formalaşmış məsuliyyət hissi ibtidai sinif şagirdinin özünəinamının mövcudluğunu, qarşıya məqsəd qoymaq və onları həll etmək bacarığını göstərir. Məsuliyyət hissi həyatda uğur qazanmağa və sinifdə nüfuza nail olmağa çalışan hər bir şagird üçün zəruri olan keyfiyyətdir. Məsuliyyət hissi şəxsiyyətin xassəsi olub birgə fəaliyyət zamanı formalaşır və o, şagirdin sosial dəyərləri, norma və qaydaları dərk etməsinin nəticəsidir. Məsuliyyət göstəricilərinə aşağıdakıları aid etmək olar:

– başqaları üçün vacib olan tapşırıqların yerinə yetirilməsinin vacibliyini dərk etmək;

– fərdin tapşırıqların səmərəli yerinə yetirilməsinə, onların məntiqi nəticəyə çatdırılmasına diqqət yetirmək;

– emosional komponentin daxil edilməsi, tapşırığın yerinə yetirilməsi prosesi və onun nəticəsi barədə narahat olmaq;

– verilən tapşırığın yerinə yetirilməsi üçün məsuliyyət daşımağın vacibliyini dərk etmək.

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesi erkən məktəbəqədər uşaqlıq dövründən başlayır və şübhəsiz ki, məktəb təhsili prosesində də davam etməlidirlər. Müəllimlərin qarşısında duran ən mühüm vəzifə məktəb şəraitində həm dərslərdə, həm də dərsdənkənar tədbirlərdə şagirdlərdə məsuliyyət hissini inkişaf etdirməkdir. Qeyd etmək lazımdır ki, bu proses ailədə məsuliyyətin inkişafı ilə sıx bağlı olmalıdır. Məsuliyyət hissinin formalaşması prosesi təhsilə kompleks yanaşma, məktəblilər, müəllimlər, valideynlər, sinif rəhbərləri arasında dərs və dərsdənkənar fəaliyyət zamanı qarşılıqlı əlaqə, habelə ailədə uşaqda məsuliyyətin inkişafına münasibətin dəyişməsi ilə təmin edilə bilər. İbtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesini şərti olaraq üç sahəyə bölmək olar:

– dərslərdə tərbiyəvi komponent, kurikulumun fənlərinin öyrənilməsi prosesi;

– sinifdənkənar fəaliyyətlərdə məsuliyyətin inkişafı;

– uşaqlarda məsuliyyət hissini inkişaf etdirmək məsələlərində valideynlər üçün məsləhət işinin təşkili.

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesində üç mərhələni ayırd etmək olar: *birinci mərhələdə* şagirdlər böyüklərin köməkçisi olurlar. İlk dəfə hansısa tapşırığı öhdəsinə götürəndə onlar çox narahatçılıq hissi keçirirlər: uğur qazanacaqlarmı, yaxşı iş görəcəklərmi, təriflənəcəklərmi?

Buna görə də, bu mərhələdə şagirdlər mümkün qədər tez-tez təsdiq və tərif eşitməlidirlər. Təklif olunan tapşırıqların uşaqlar üçün mümkün olması və onların real imkanlarına uyğun olması vacibdir. *İkinci mərhələdə* şagirdlərə xatırlatma və nəzarət lazımdır. Ancaq bunu sakit, mehriban, təzyiq olmadan etmək lazımdır. *Üçüncü mərhələdə* şagirdlər artıq tapşırığı müstəqil şəkildə yerinə yetirir, ona artıq xatırlatma və nəzarət lazım deyil, o, necə və nə etməli olduğunu aydın bilirlər. Məsuliyyət hissi fərdin emosional, əxlaqi və ideoloji aspektləri ilə sıx bağlıdır.

Məsuliyyət hissinin formalaşması prosesində diqqət yetirmək lazımdır ki, şagird ona verilən tapşırığı yerinə yetirməkdə emosional maraq duysun, həyata keçirdiyi fəaliyyətin təkcə özü üçün deyil, digər insanlar üçün də əhəmiyyətini hiss etsin. Onu da vurğulamaq lazımdır ki, şagirdlərdə yetkinlik dövründə formalaşan məsuliyyət hissi düzgün qərarlar qəbul etməyə, fəal həyat mövqeyi tutmağa, cəsarətli ideyaların və həyat mövqeyinin həyata keçirilməsinə kömək edir.

Pedaqoji sistem yalnız müəyyən şərtlər yerinə yetirildikdə uğurla fəaliyyət göstərə və inkişaf edə bilər. Pedaqoji şərtlərin spesifik xüsusiyyəti ondan ibarətdir ki, o, təlim və tərbiyə prosesinin bütün komponentlərinin elementlərini: məqsədləri, məzmunu, metodları, formaları və vasitələrini ehtiva edir. Pedaqoji şərtlər dedikdə, pedaqoji fəaliyyətin səmərəliliyini artırmaq məqsədi daşıyan tədbirlər kompleksi başa düşülür [3].

N.M. Borıtko pedaqoji prosesə təsir göstərən və müəyyən nəticə əldə etməli olan pedaqoji şərt qismində xarici şəraiti müəyyən edir [4]. Alim pedaqoji şərtlərin zəruriliyini qeyd edərək diqqəti əldə olunan nəticələrin əhəmiyyətinə

yönəldir. Pedaqoji şərtlərin qeyri-müəyyən müəyyən edilməsi, düzgün tərtib edilməmiş pedaqoji şərtlər olması halında, pedaqoji fəaliyyətin özündən səmərəli nəticələr gözləmək lazım deyil. Pedaqoji şərtlər müəyyən didaktik məqsədlərə nail olmaq üçün məzmun elementlərinin, metodlarının və təlimin təşkilati formalarının tərtibi və tətbiqinin məqsədyönlü seçilməsinin nəticəsi olan təlim prosesinin şəraitidir.

Nəzəri araşdırmaları nəzərə alaraq deyə bilərik ki, pedaqoji şərtlər dedikdə, müəyyən məqsədlərə nail olmağa yönəlmiş tədbirlər məcmusu başa düşülür. Pedaqoji prosesin planlaşdırılması prosesində qarşıya qoyulan məqsədlərin aydınlığı zəruri nəticələrin əldə olunmasını müəyyən etməlidir. İbtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi problemləri üzərində işləyərkən onların yaş və psixoloji xüsusiyyətlərini nəzərə almaq lazımdır ki, bu da şagirdlərdə məsuliyyət hissinin tərbiyə olunmasının pedaqoji şərtlərindən biridir.

Öz peşə fəaliyyətinin nəticələri ilə maraqlanan ibtidai sinif müəllimi qeyd olunan xüsusiyyətləri daim nəzərə almalı, təlim prosesini şagird üçün daha emosional və maraqlı olmasına çalışmalıdır. İbtidai sinif şagirdlərində müstəqilliyin inkişaf etdirilməsi məsələlərini araşdıran alimlər hesab edirlər ki, müstəqil işi ayrıca pedaqoji metod və ya şagirdlərin fəaliyyətinin təşkili forması kimi müəyyən etmək olmaz. S.Q. Yarikova onu şagirdlərin fəal müstəqil idrak fəaliyyətinə cəlb etmək və onun məntiqi, psixoloji təşkili vasitəsi hesab edir (5).

Belə bir nəticəyə gələ bilərik ki, ibtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi prosesi aşağıdakı pedaqoji şərtlər yerinə yetirildikdə daha uğurlu olacaqdır: 1) ibtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi prosesində humanizm prinsiplərinə riayət edilməlidir; 2) bu yaş dövründə kiçik yaşlı məktəblilərin fərdi inkişaf və psixoloji xüsusiyyətlərini nəzərə alınmalıdır; 3) ənənəvi pedaqoji təsir üsullarından vaxtaşırı istifadə edilməlidir (iradi keyfiyyətlərin inkişafını stimullaşdırmaq üsulları, iradi davranış təcrübəsinin toplanması və formalaşdırılması üsulları, davranış qaydaları, məşqlər, təhsil vəziyyətləri); 4) ibtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşdırılması üçün dərslərdə müstəqil işlərdən istifadə edilməlidir.

Beləliklə, kiçik yaşlı məktəblilərdə məsuliyyət hissinin inkişafı prosesinin daha uğurlu olması üçün vurğulanan şərtlərlərdən kompleks şəkildə istifadə edilməlidir.

**Problemin aktuallığı.** Məqalədə ibtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesində üç mərhələnin mühüm rolu və ibtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi prosesində pedaqoji şərtlərin vacibliyi məqalənin aktuallığını göstərir.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə kiçik yaşlı məktəblilərdə məsuliyyət hissinin pedaqoji şərtləri və formalaşmasının metodları ardıcıllıqla araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Косова, В.В. Условия образования педагогических форм во внеурочной работе общеобразовательной школы: дис.канд.пед.наук. — Томск: — 2013.— 204с.
2. Лайзане С.Я. Диагностика интеллектуального развития учащихся. –Рига: 2019. –86 с.
3. Иванова, И.Ю. Формирование коммуникативных навыков у перво- классников во внеурочной деятельности // Начальная школа. –2013. № 2.
4. Борытко Н.М. В пространстве воспителиной деятельности. – Волгоград: 2001. –С.12.
5. Ярикова С. Г. Формирование ответственности у младших школьников: метод. рек. для студентов и учителей нач. кл. –Волгоград: 2016. –19 с.


**Redaksiyaya daxil olub:** 07.10.2025